ISSN: 2663-4619
e-ISSN: 2708-986X

DOI: https://doi.org/10.36719/2663-4619/117/88-91

**Günel Əyyubova**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
magistrant
https://orcid.org/0009-0009-4745-3254
eyyubova.gunel28@gmail.com

# Quba soyqırım memorial kompleksinin nümumәsindә memorial abidәlәrin milli kimliyin formalaşmasına tәsiri

## Xülasə

Quba Soyqırımı Memorial Kompleksi, Azərbaycanın tarixini və milli kimliyini yaşatmaq üçün böyük önəm daşıyır. Bu abidə yalnız faciənin xatirəsini əbədiləşdirmir, həm də xalqın kollektiv yaddaşını gücləndirir. Memorial abidələr milli şüurun formalaşmasına və vətənpərvərlik duyğusunun artmasına kömək edir. Quba Soyqırımı Kompleksi, eyni zamanda Azərbaycanın tarixi və mədəniyyətini dünya səviyyəsində tanıtmada mühüm rol oynayır. Belə abidələr gələcək nəsillərə keçmişin dərslərini çatdırmaqla yanaşı, milli birliyi və gücü də təbliğ edir, həm də milli kimliyin qorunmasında və möhkəmləndirilməsində əsas vasitə rolunu oynayır. Məqalənin məqsədi, Quba Soyqırımı Memorial Kompleksinin yaradılmasının və memorial abidələrin milli kimliyin qorunmasındakı rolunu təhlil etməkdir.

***Açar sözlər:*** *Quba Soyqırımı, memorial abidə, milli kimlik, tarixi yaddaş, soyqırım, kollektiv yaddaş, vətənpərvərlik*

**Gunel Ayyubova**
Azerbaijan State University of Culture and Arts
Master student
https://orcid.org/0009-0009-4745-3254
eyyubova.gunel28@gmail.com

# The Impact of Memorial Monuments on the Formation of National Identity in the Example of Quba Genocide Memorial Complex

## Abstract

The Quba Genocide Memorial Complex holds great significance in preserving Azerbaijan's history and national identity. This monument not only immortalizes the memory of the tragedy but also strengthens the collective memory of the people. Memorial monuments contribute to the formation of national consciousness and the increase of patriotism. The Quba Genocide Complex also plays an important role in introducing Azerbaijan's history and culture to the world. Such monuments, while passing on the lessons of the past to future generations, also promote national unity and strength, serve as a key tool in the preservation and strengthening of national identity. The purpose of this article is to analyze the creation of the Quba Genocide Memorial Complex and the role of memorial monuments in the preservation of national identity.

***Keywords:*** *Genocide of Quba, memorial monument, national identity, historical memory, genocide, collective memory, patriotism*


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

## Giriş

Memorial abidələr uzun tarixi inkişaf yolu keçmişdir və bu müddət ərzində cəmiyyətin yaddaşında mühüm yer tutmuşdur. Onların əsas məqsədi – tarixi yaddaşın qorunması və nəsildən-nəslə ötürülməsidir. Bu abidələrin yaranması çox zaman ölüm anlayışı və onunla bağlı olan mənəvi dəyərlərlə əlaqələndirilir. İnsanlar tarix boyunca dünyasını dəyişmiş şəxslərin xatirəsini yaşatmaq, onların nailiyyətlərini unudulmamaq üçün müxtəlif memarlıq nümunələri yaratmışlar. Memorial abidələr yalnız tarixə deyil, həm də insani duyğulara əsaslanaraq keçmişin önəmli hadisələrini yaddaşlarda saxlayır. Bu baxımdan onlar mədəniyyətin emosiya ilə yüklənmiş daşıyıcısı rolunu oynayır. Ən çox memorial abidələr müharibələr, soyqırımları və repressiyalar kimi bəşəriyyətə dərin iz buraxmış faciəli hadisələrin xatirəsinə həsr olunur. Belə hadisələr insanların öz fəaliyyəti nəticəsində baş vermiş genişmiqyaslı itkilərlə bağlı olur. Onlara ithaf olunan abidə və komplekslər isə təkcə kollektiv yaddaşın qorunmasına deyil, həm də gələcək nəsillərə tarixi səhvlərin təkrarlanmaması üçün bir xəbərdarlıq kimi xidmət edir (Sokolova, 2024, s. 245).

Bu səbəbdən memorial tikililər təkcə tarixi yaddaşın qorunması baxımından deyil, həm də geniş sosiomədəni mənaya malik olmaqla bir sıra mühüm funksiyaları yerinə yetirir. Onlar tarixi şüurun formalaşmasına xidmət etməklə yanaşı, mədəniyyətlərarası ünsiyyətin qurulmasında və fərdi kimliyin müəyyənləşdirilməsində vasitə kimi çıxış edir. Bu cür yanaşma cəmiyyətin birliyini gücləndirir və onun gələcək inkişafına müsbət təsir edir. Memorial memarlıq nümunələri həmçinin gənclərdə vətənə məhəbbət hisslərinin formalaşmasında və onların tərbiyəsində əhəmiyyətli rol oynayır (Təhməzova, 2025).

**Tədqiqat**

Qloballaşmanın geniş təsir imkanları ilə milli dəyərlər və mədəni özünəməxsusluq arasında tarazlıq saxlamaq getdikcə çətinləşir. Bir çox xalqlar üçün milli kimliyi qorumaq, bu gün aktual və zəruri vəzifəyə çevrilmişdir. Qlobal mədəniyyətin təzyiqi altında milli xüsusiyyətlərin itməməsi yalnız güclü kimlik şüuruna sahib olan xalqlara nəsib olur. Belə xalqlar öz tarixi və mədəni dayaqlarına söykənərək, qlobal məkanda assimilyasiyaya qarşı dayanıqlı mövqe nümayiş etdirirlər (Qurbanov, 2020, s. 20).

Tarixi yaddaşın qorunmasında mühüm rol oynayan vasitələrdən biri də memorial abidələrdir – onlar keçmişi sadəcə xatırlatmır, həm də gələcək nəsillər üçün mənəvi dayaq rolunu oynayır. Bu cür abidələr yalnız memarlıq baxımından önəmli deyil, həm də xalqlar arasında qarşılıqlı anlaşmanın və mədəni münasibətlərin qurulmasında dəyərli simvolik məkanlar kimi çıxış edir. Zamanla müxtəlif dövrlərdə ucaldılan bu tikililər, mədəniyyətlər arasında dialoqun formalaşmasında və ortaq humanitar dəyərlərin yayılmasında əhəmiyyətli funksiyalar yerinə yetirmişdir. Tarixin konkret izlərini əks etdirən bu abidələr vasitəsilə xalqlar həm öz kimliklərini nümayiş etdirir, həm də keçmiş təcrübələrini başqa mədəniyyətlərlə bölüşürlər.

Belə abidələr öz mahiyyətinə görə mədəniyyətlərarası körpü funksiyası daşıyır. Məsələn, Holokosta həsr olunmuş memorial komplekslər yalnız bir millətin yaşadığı faciəni deyil, eyni zamanda bəşəriyyətin başına gəlmiş böyük bir bəlanı təmsil edir və humanist dəyərlərin təbliğinə xidmət edir. Bu strukturlar, həm kollektiv yaddaşın bərqərar olmasında, həm də cəmiyyətlərin keçmişdən dərs çıxarma ehtiyacını vurğulamaqda xüsusi yer tutur. Müxtəlif ölkələrdən gələn insanlar, anım günləri, beynəlxalq tədbirlər və mədəni turizm vasitəsilə bu məkanlarla tanış olur, nəticədə mədəniyyətlərarası anlayış və qarşılıqlı hörmət kimi dəyərlər təşviq olunur (Tivyayeva, 2023, s. 39).

Memorial abidələr həmçinin qlobal miqyasda mədəni turizmin əsas tərkib hissələrindən birinə çevrilmişdir. Minlərlə ziyarətçi hər il bu abidələri görmək üçün müxtəlif ölkələrə üz tutur və bu prosesdə yalnız müəyyən bir xalqın keçmişi ilə deyil, bütövlükdə bəşəriyyətin ortaq təcrübələri ilə tanış olur. Bu cür qarşılıqlı əlaqələr nəticəsində fərqli xalqlar arasında empatiya, anlayış və qarşılıqlı hörmət kimi dəyərlər daha da güclənir (Mustafayev, 2022).

Unutmaq olmaz ki, 1918-ci il Azərbaycan tarixində taleyüklü bir mərhələ kimi xatırlanır. Bu dövr, milli dövlətçiliyə doğru atılan ciddi və əhəmiyyətli addımlarla yadda qalmışdır. O zamankı hadisələr həm xalqın azadlıq uğrunda apardığı iradəli mübarizəni təcəssüm etdirirdi, həm də bölgədəki qarışıq və qeyri-sabit siyasi vəziyyətin təzahürü idi. Bu vəziyyət regionda sosial və siyasi təzyiqlərin artmasına gətirib çıxararaq, Cənubi Qafqazın geosiyasi maraqların toqquşduğu mürəkkəb bir məkan halına gəlməsinə səbəb oldu. Çar imperiyasının çökməsindən sonra Qafqazda yaranan siyasi boşluq bölgədə sabitliyi sarsıtdı. 1918-ci ilin martında Bakıda baş verən qanlı hadisələr zamanı daşnak və

bolşevik silahlı dəstələri məqsədli şəkildə yerli müsəlman əhalini hədəfə alaraq böyük bir qırğın törətdilər. Bu dəhşətli hadisələr nəticəsində minlərlə insan amansızlıqla qətlə yetirildi. Bu faciə, azərbaycanlıların içərisində milli həmrəyliyin güclənməsinə və dövlət müstəqilliyinə olan meylin daha da dərinləşməsinə ciddi təsir göstərdi.

1918-ci ilin Mart hadisələri Azərbaycan xalqının yaddaşında silinməz iz buraxmış faciələrdən biridir. Tarixi sənədlər və arxiv materialları bu qırğınların təsadüfi deyil, əvvəlcədən planlaşdırılmış və məqsədyönlü şəkildə həyata keçirildiyini sübut edir. Hadisələr yalnız insanların fiziki məhvini deyil, eyni zamanda onların mədəniyyətinin və kimliyinin silinməsinə yönəlmişdi. Bu cür zorakılıq aktları azərbaycanlıların təkcə bədəninə deyil, mənəviyyatına da ağır zərbə vurmuşdu (Abışov, 2017, s. 37-39).

Quba şəhərinin yaxınlığında aşkarlanmış kütləvi məzarlıq, bu tarixlərin gerçəkliyini elmi əsaslarla təsdiqləyən əsas sübutlardan biridir. 2007-ci ildə aşkarlanan bu məzarlıq sahəsi arxeoloji baxımdan təkcə yerli deyil, həm də beynəlxalq elmi ictimaiyyət üçün xüsusi maraq kəsb edir. Məzarlıqda tapılmış insan qalıqları həmin dövrdə baş verən kütləvi qətllərin izlərini üzə çıxarmağa xidmət etmiş və 1918-ci il mart hadisələri ilə birbaşa əlaqələndirilmişdir. Quba məzarlığı, bu dəhşətli hadisələr nəticəsində həyatını itirmiş minlərlə insanın dəfn olunduğu bir yer kimi tanınır. Bu mühüm elmi nəticələr Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun yeritdiyi sistemli araşdırmalar nəticəsində əldə olunmuşdur. Quba kütləvi məzarlığının üzə çıxarılması, təkcə bir faciənin elmi sənədləşdirilməsi deyil, həm də milli yaddaşın qorunması və gələcək nəsillərə ötürülməsi baxımından böyük ictimai və tarixi əhəmiyyət daşıyır (Əlizadə, 2018, s. 104). Quba məzarlığı yalnız arxeologiya sahəsində vacib bir obyekt olmaqla kifayətlənmir, həm də 1918-ci ilin qanlı hadisələrini sübut edən əyani və tarixi bir mənbə rolunu oynayır. Bu ərazi, Azərbaycanın tarixində dərin iz buraxmış Mart soyqırımının gerçəkliyini sübut edən konkret və danılmaz faktlarla doludur (Məmmədova, 2020, s. 70).

Memorial abidələr, komplekslər gələcək nəsillərin maarif-ləndirilməsi, tarixdən dərs götürməsi və bənzər fəlakətlərin təkrar olunmaması üçün mühüm vasitə rolunu oynayır. Quba Soyqırımı Memorial Kompleksi də məhz bu məqsədlə inşa edilib – 1918-ci ilin mart ayında baş vermiş qanlı hadisələrin qurbanlarının xatirəsini yaşatmaq və bu tarixi faciənin unudulmamasını təmin etmək üçün. Bu kompleksin yaradılması, təkcə yerli ictimaiyyətin deyil, ümumilikdə bəşəriyyətin bu faciəni xatırlaması və ədalətin bərpası yönündə birlik nümayiş etdirməsinə xidmət edir. Quba Memorialı, həmin dövrdəki zorakılıqların miqyasını və mahiyyətini beynəlxalq auditoriyaya göstərmək üçün nəzərdə tutulmuş vacib bir layihədir. Kompleksin əsas missiyalarından biri də bu tarixi travmanın gələcək nəsillərə ötürülməsi və kollektiv yaddaşda canlı saxlanılmasıdır.

Eyni zamanda, Quba Memorialı yalnız Azərbaycanın deyil, bütövlükdə dünya ictimaiyyətinin soyqırımlara qarşı həssaslığını artırmaq və belə cinayətlərin bir daha baş verməməsinə töhfə vermək məqsədi daşıyan bir mesaj daşıyıcısıdır (Rzayev, 2020). Memorial kompleksin turizm sektoruna da ciddi təsiri vardır. Bu abidə, həm ölkə daxilindən, həm də xaricdən gələn qonaqlar üçün həm maarifləndirici, həm də tarixi düşüncə üçün vacib bir məkana çevrilmişdir. Buraya gələn ziyarətçilər, 1918-ci ilin mart ayındakı faciələrin mahiyyətini daha dərindən anlayır, həmin dövrün Azərbaycan tarixində tutduğu yeri əhatəli şəkildə mənimsəyirlər. Quba Memorialı yalnız tarixşünaslıq baxımından deyil, həm də milli kimliyin formalaşması prosesindəki rolu ilə də ön plana çıxır.

Bütün kompleks hissələrə ayrılmışdır: giriş yolu, əsas abidə, sərgi sahələri və kütləvi məzarlığın üzərində yerləşən xatirə lövhələri. Bu elementlər bir-biri ilə məntiqi ardıcıllıqla əlaqələndirilmişdir ki, ziyarətçi əraziyə daxil olduqca hadisənin dərinliyinə mərhələ-mərhələ nüfuz edə bilsin. Kompleks boyunca nəzərdə tutulmuş hərəkət marşrutu, insanı hər addımda düşünməyə, hüzn və hörmət hissləri ilə qarşı-qarşıya qoyur (Məmmədov, 2017, s. 135).

Bu kompleks, cəmiyyət daxilində ortaq milli yaddaşın yaradılması və onun qorunması prosesinə mühüm töhfə verir. Belə bir yaddaş həm keçmişdən alınan dərsləri unutmamağa, həm də gələcəkdə oxşar faciələrin qarşısını almaq üçün milli həmrəyliyin və birlik hissinin önəmini anlamağa kömək edir. Memorialın fəaliyyətləri, o cümlədən burada təşkil olunan elmi konfranslar, sərgilər və maarifləndirici proqramlar, bu məqsədlərin reallaşmasına əlavə dəstək olur (Abbasova, 2021). Quba Soyqırımı Memorial Kompleksində yerləşən sərgi zalları və ekspozisiyalar, 1918-ci il hadisələrinin beynəlxalq ictimaiyyətə təqdim edilməsində vacib rol oynayır. Burada nümayiş olunan arxiv sənədləri, xəritələr, fotoşəkillər və insan qalıqları ziyarətçilər, xüsusilə də xarici diplomatlar üçün

Azərbaycan xalqına qarşı həyata keçirilən soyqırımın miqyası və fəsadları barədə aydın təsəvvür yaradır. Bu cür tədbirlər vasitəsilə soyqırımın həqiqətləri geniş kütləyə çatdırılır, beynəlxalq diqqət bu tarixi faciəyə yönəldilir və Azərbaycan xalqının haqlı mövqeyi dünya səviyyəsində daha yaxşı başa düşülür (Əliyev, 2020, s. 18).

## Nəticə

Nəticə etibarilə, Quba Soyqırımı Memorial Kompleksi Azərbaycanın tarix yaddaşının qorunması və milli kimliyin davamlı şəkildə təzahür etdirilməsi baxımından strateji və mədəni əhəmiyyətə malikdir. Bu abidədə toplanmış materiallar və mədəni sübutlar kollektiv xatirənin sistemli şəkildə yaşadılmasına töhfə verməklə yanaşı, tarix və sosial antropologiya tədqiqatları üçün də əsas mənbə təşkil edir. Kompleks yalnız faciənin xatirəsini yaşatmır, eyni zamanda xalqın ortaq yaddaşının möhkəmlənməsinə xidmət edir. Belə memorialar milli şüurun inkişafına və vətənpərvərlik hisslərinin artmasına yardımçı olur. Quba Soyqırımı Kompleksi həmçinin Azərbaycanın tarixi və mədəni irsini dünya səviyyəsində tanıtmaq üçün önəmli platformadır. Bu obyekt yalnız milli yaddaşın qorunması funksiyasını daşımaqla kifayətlənmir, həm də Azərbaycanın müstəqillik tarixini və mədəni zənginliyini qlobal müstəvidə daha yaxşı başa düşülməsinə şərait yaradır. Kompleksin təqdim etdiyi dəyərli tarixi və mədəni materiallar, humanitar elmlərdə aparılan geniş araşdırmalara əsaslanaraq, Azərbaycanın dünya miqyasında unikal mövqeyini nümayiş etdirir. Bu tip abidələr, keçmişin dərslərini gələcək nəsillərə ötürməklə yanaşı, milli həmrəyliyi və gücü təbliğ etmək missiyasını da yerinə yetirir.

## Ədəbiyyat

1. Abbasova, S. (2021). *Quba Soyqırımı Memorial Kompleksi və tarixi yaddaşın təzahürləri*. Elm və Təhsil.
2. Abışov, V. Ş. (2017). *Bakıda Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı*. Elm.
3. Əlizadə, İ. (2018). Quba kütləvi məzarlığının arxeoloji tədqiqatları və nəticələri. *Azərbaycan Tarixi Araşdırmaları, 45*(2), 103–120.
4. Əliyev, M. (2020). *Quba Soyqırımı Memorial Kompleksi: Beynəlxalq tanınma və Azərbaycanın haqlı mövqeyi*. Bakı: Milli Elmlər Akademiyası, 15–25.
5. Məmmədov, C. (2020). 1918-ci il mart soyqırımının izləri: Quba kütləvi məzarlığı. *Müasir Azərbaycan Tarixi, 35*(1), 67–89.
6. Məmmədov, R. (2017). *Azərbaycan memarlığında xatirə və soyqırımı abidələrinin formalaşması*. Nurlar Nəşriyyatı, 130–138.
7. Mustafayev, E., & Kərimov, E. (2022). *Azərbaycanda mədəni irs və mədəni turizm: Resurslar, Məhsullar, Təcrübələr*. Bakı: Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi.
8. Qurbanov, F. (2020). Milli kimlik: mahiyyəti və əsas komponentləri haqqında. Müasir İnkişaf İctimai Birliyi, 12–27.
9. Rzayev, E. (2020). *Azərbaycanın tarixi abidələri və memorial kompleksləri: Mədəni və tarixi perspektivlər*. Mütərcim Nəşriyyatı.
10. Sokolova, A. N. (2024). Arkhitekturno-memorial'nyy kompleks v prostranstve goroda: sotsiokul'turnoye znacheniye. Nauchnyy konsilium: pedagogika i psikhologiya, (59(2)), 244–247.
11. Təhməzova, K. (2015). *Tarixi mədəniyyət abidələrinin şagirdlərin tərbiyələndirilməsindəki rolu*. https://konultaxmezova.blogspot.com/p/tarixi-mdniyyt.html
12. Tivyaeva, İ. V. (2023). Memorial plaques in multimodal urban discourse: A visual narrative reflecting Moscow's glorious past. *Visual Anthropology, 36*(1), 38–53. https://doi.org/10.1080/08949468.2023.2168960